# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№380/1** **09 oktyabr 2025-ci il**

**“Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat kontekstində auditorların vəzifələrinə və məsuliyyətlərinə dair” metodik vəsait barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 1.1.1.3-cü “Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat şəraitində mühasiblərin və auditorların öhdəliklərinə və məsuliyyətlərinə dair hüquqi aktların qəbul edilməsi məqsədilə qanunvercilik aktlarına dəyişikliklər edilməsi üçün müvafiq layihələrin hazırlanması və kompleks tədbirlərin həyata keçirilməsi” bəndinin icrası ilə əlaqədar Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış “Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat kontekstində auditorların vəzifələrinə və məsuliyyətlərinə dair” metodik vəsaiti müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat kontekstində auditorların vəzifələrinə və məsuliyyətlərinə dair” metodik vəsait Şura üzvlərinin təklif və tövsiyələri nəzərə alınmaqla bəyənilsin (əlavə olunur).
2. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, üç həftə müddətində KİV-də dərc olunması məqsədilə “Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat kontekstində auditorların vəzifələrinə və məsuliyyətlərinə dair” məqalə hazırlanmasını təmin etsin.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki, 2025-ci ilin IV rübündə auditor təşkilatları və sərbəst auditorlar üçün “Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat kontekstində auditorların vəzifələrinə və məsuliyyətləri”nə dair seminarın keçirilməsi təmin edilsin.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, on gün müddətində bu qərarın və “Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat kontekstində auditorların vəzifələrinə və məsuliyyətlərinə” dair metodik vəsaitin mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**